Prezident İlham Əliyev yanvarın 20-də Ümumdünya İqtisadi Forumunun illik toplantısı çərçivəsində "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda keçirilən panel iclasında iştirak edib. İclasda dövlətimizin başçısı regional təhlükəsizlik, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinin indiki vəziyyəti, tarixi Vaşinqton razılaşmaları və onun icrası prosesi, iki dövlət arasında etimad mühitinin formalaşması istiqamətində atılan addımlar, regionun coğrafi mövqeyi və digər məsələlər ətrafında mövqeyini ifadə edib.

# Prezident İlham Əliyevin misilsiz fəaliyyəti Azərbaycanı nüfuzlu dövlətə çevirib



Milli Məclisin deputatı Elman Nəsirov qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyev, ilk növbədə, diqqəti 1991-ci ildə müstəqillik əldə etdikdən sonra heç vaxt dinc şəraitdə yaşamadığımıza, həmişə müharibə vəziyyətində olduğumuza çəkib: "Ölkə rəhbəri bildirib ki, yalnız son 5-6 ay ərzində müharibəsiz regionun necə olduğunu dərk edirik, artıq atəşkəs pozulmur və Vaşinqton razılaşmaları icra edilir. Bir çox hallarda beynəlxalq təşkilatların qəbul etdiyi qərarlar icra olunmur. Bu gün müasir beynəlxalq sistemin özündə köklü dəyişikliklər baş verməkdədir. Beynəlxalq hüquq işləmir, dövlətlər öz aralarında ikitərəfli formatda münasibətlərin tənzimlənməsi ilə bağlı daha ciddi nailiyyətlərə imza ata bilirlər. Azərbaycan-Ermənistan münasibətləri də bu baxımdan istisna deyil".

Deputat qeyd edib ki, Azərbaycan və Ermənistan vasitəçilər olmadan sülh prosesinə töhfələr verib, artıq sülh sazişi paraflanıb. ABŞ-nin bu prosesə böyük dəstəyi var. Prezident İlham Əliyev bu baxımdan TRIPP layihəsinə diqqəti cəlb etdi. Dövlət başçısı Zəngəzur dəhlizinin açılmasının icra prosesindən bəhs edərək bildirdi ki, bu layihə də reallaşacaq və sözün həqiqi mənasında, Cənubi Qafqaz regionuna uzunmüddətli və dayanıqlı sülh gələcək. "Cənab Prezidentin bu mövqeyi Ermənistan Prezidenti tərəfindən də dəstəkləndi. İlham Əliyevin "biz sülh şəraitində yaşamağa öyrəşməliyik" fikrinin çox ciddi mənası və əhəmiyyəti var. Çünki sülh şəraitində yaşamaq üçün etimad mühiti olmalıdır və bunu qazanmaq və formalaşdırmaq lazımdır. Bu istiqamətdə də proseslər davam edir. Bir neçə il bundan qabaq bu gün baş verən prosesləri proqnozlaşdırmaq mümkün deyildi", - deyə E.Nəsirov əlavə edib.

E.Nəsirov bildirib ki, Azərbaycanın neft məhsulları da Ermənistan bazarına daxil olub və bunun sayəsində orada benzinin qiyməti aşağı düşüb. Bu, onun göstəricisidir ki, iki ölkə əməkdaşlıq etdikdə, kommunikasiyaların bərpası istiqamətində real addımlar atdıqda daha yüksək nəticələr əldə etmək olur.

Deputat vurğulayıb ki, Orta dəhliz və onun mühüm tərkib hissəsi olan TRIPP layihəsi vasitəsilə Asiyadan yüklər Zəngəzur dəhlizindən keçməklə, Naxçıvana, oradan Türkiyə və Avropa bazarına çatdırılacaq: "Burada bütün tərəflər uduşlu vəziyyətdədir. Yəni əməkdaşlıq mühiti ona gətirib çıxaracaq ki, Ermənistan da öz mallarını Azərbaycan ərazisindən tranzit yolu ilə ixrac edə biləcək. Bununla Ermənistan iqtisadiyyatı canlanacaq və əməkdaşlıq, etimad mühiti nəticə etibarilə iki xalqın, dövlətin sülh şəraitində yaşamasını təmin edəcək. Ölkəmizin rəhbərinin bu mövqeyini Serbiya Prezidenti Vuçiç də dəstəkləyib. O, çıxışının sonunda fikrini belə ifadə etdi: "Cənab Prezident İlham Əliyevin söylədiyi fikirlərlə bağlı bir mövqe var: o, həqiqətən də müasir dünyada böyük, dahi liderlərdən biridir və indiki dövrdə belə bir lideri çox nadir halda görmək olur. Bunun çox böyük təsir effekti var və bu, danılmamalıdır. Bəli, biz müasir Azərbaycanı görürük".

Bu, Serbiya Prezidenti Aleksandar Vuçiçin Prezident İlham Əliyevə verdiyi yüksək qiymətdir. Dünyanın əksər liderləri də bu mövqeyi bölüşürlər. Prezident İlham Əliyevin beynəlxalq aləmdə misilsiz fəaliyyəti sayəsində Azərbaycanın sözünün məna və çəkisi xeyli yüksəlib. Dövlətimizin başçısının Davos forumunda iştirakı və burada keçirdiyi görüşlər, təmaslar, panel müzakirələrdə səsləndirdiyi fikirlər və bunlara çox böyük önəm verilməsi təsdiqləyir ki, cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan dünyada çox böyük nüfuza və hörmətə malik dövlətə çevrilib. Ölkəmiz beynəlxalq sülhün və təhlükəsizliyin təmin olunması prosesinə də böyük töhfələr verir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2026.- 23 yanvar (№ 13).- S.5.